# Mündəricat


01 Dayanıqlı İnkişaf Məqsədinin (DİM) “Keyfiyyətli təhsil” göstəricilərinin 2026-cı il üzrə qiymətləndirilməsi: milli hədəflər istiqamətində irəliləyiş

02 Peşə bacarıqlarının artırılması yollarına dair icmal: Xorvatiyada böyüklər üçün yeni imkanlar

03 Ömürboyu öyrənmənin ölçülməsi üçün yeni konseptual çərçivə

# Dayanıqlı İnkişaf Məqsədinin (DİM) “Keyfiyyətli təhsil” göstəricilərinin 2026-cı il üzrə qiymətləndirilməsi: milli hədəflər istiqamətində irəliləyiş

01

UNESCO-nun Statistika İnstitutu (UNESCO Institute for Statistics – UIS) və UNESCO-nun Qlobal Təhsil Monitorinqi Hesabatı (Global Education Monitoring Report – GEM Report) tərəfindən hazırlanmış “2026 DİM 4 üzrə göstəricilərin qiymətləndirilməsi” hesabatında ölkələrin Dayanıqlı İnkişaf Məqsədlərinin 4-cü məqsədi – Keyfiyyətli təhsil (DİM 4) üzrə müəyyən etdikləri milli təhsil hədəflərinə nail olmaq istiqamətində irəliləyişi qiymətləndirilir. Hesabat 2015-ci ildən etibarən ölkələrin müəyyən etdikləri milli hədəflərin icra vəziyyətini təhlil edən dördüncü qiymətləndirmədir.

DİM 4 bütün insanlar üçün inklüziv, bərabərhüquqlu və keyfiyyətli təhsilin təmin edilməsini və ömürboyu öyrənmə imkanlarının təşviqini nəzərdə tutur. 2015-ci ildə qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədləri ölkələr qarşısında qlobal təhsil hədəflərinə nail olmaq öhdəliyi qoysa da, bu hədəflərin ölkələrin müxtəlif başlanğıc mövqelərinə və inkişaf imkanlarına uyğun şəkildə konkretləşdirilməsi zərurəti yaranmışdır. Bu məqsədlə DİM 4 üzrə “benchmarking”, yəni ölkələrin öz milli aralıq hədəflərini müəyyən etməsi və həmin hədəflərə doğru irəliləyişin müntəzəm izlənilməsi mexanizmi formalaşdırılmışdır.

2026-cı il hesabatında 170 ölkənin ən azı bir DİM 4 göstəricisi üzrə hədəf müəyyən etdiyi bildirilir. Bundan əlavə, 2026-cı ildə Qabon, Liberiya, Zambiya, Niderland, Serbiya, İsveçrə və Yəmən ilk dəfə benchmark dəyərlərini təqdim etmişdir. Bu göstəricilər müqayisəli qiymətləndirmə prosesinin ölkə səviyyəsində getdikcə daha geniş qəbul edildiyini və təhsil siyasətində milli məsuliyyətlilik mexanizmlərinin gücləndiyini göstərir.

Ənənəvi qlobal monitorinq yanaşmasından fərqli olaraq, bu hesabat ölkələri bir-biri ilə sadə şəkildə sıralamağı məqsəd kimi qarşıya qoymur. Əsas məqsəd hər bir ölkənin özünün müəyyən etdiyi hədəfə nə dərəcədə yaxınlaşdığını qiymətləndirməkdir. Bu yanaşma ölkələrin fərqli başlanğıc səviyyələrini, sosial-iqtisadi şəraitini və milli prioritetlərini nəzərə almağa imkan verir. Beləliklə, qlobal təhsil gündəliyi ilə milli təhsil planları arasında daha güclü əlaqənin yaradılması nəzərdə tutulur.

2026-cı il hesabatında əsas diqqətin təhsili tamamlama göstəricilərinə yönəldilməsi də bu kontekstdə əhəmiyyətlidir. Təhsilə çıxışın genişlənməsi mühüm olsa da, yalnız məktəbə qəbul və ya iştirak səviyyəsinin artması təhsil sisteminin məqsədlərinə nail olduğunu göstərmir. Şagirdlərin təhsil səviyyələrini uğurla başa vurması təhsil sisteminin davamlılığı və effektivliyinin əsas göstəricilərindən biridir. Hesabat məhz bu göstərici vasitəsilə ölkələrin 2015-ci ildən sonrakı inkişaf dinamikasını və 2025-ci il üçün müəyyən edilmiş milli hədəf göstəricilərinə çatmaq ehtimalını təhlil edir.

Hesabatın nəticələri göstərir ki, qlobal miqyasda təhsili tamamlama dərəcələri artmaqda davam edir. Xüsusilə tam orta təhsil səviyyəsinin göstəricilərində nəzərəçarpan irəliləyiş müşahidə olunur. Bununla belə, ölkələr arasında inkişafın sürəti əhəmiyyətli dərəcədə fərqlənir. Bəzi ölkələr öz milli hədəflərinə çatmaq istiqamətində sürətli irəliləyiş nümayiş etdirərkən, digər ölkələrdə inkişaf daha zəifdir və müəyyən hallarda mövcud vəziyyət milli hədəflərə çatmaq üçün kifayət etmir.

Hesabatda diqqət çəkən məqamlardan biri təhsili tamamlama göstəricilərində irəliləyişin ibtidai və ümumi orta təhsil səviyyələrində tam orta təhsillə müqayisədə daha yüksək olmasıdır. Bu nəticə təhsilin əvvəlki mərhələlərində təhsili tamamlama göstəricilərinin daha müsbət olduğunu göstərir.

Bununla belə, tam orta təhsil səviyyəsində təhsili tamamlama ilə bağlı çətinliklər davam edir.

Hesabat həmçinin təhsili tamamlama ilə məktəbdənkənar qalma göstəriciləri arasında fərqi də qeyd edir. Qlobal səviyyədə təhsili tamamlama dərəcələri yüksəldiyi halda, məktəbdənkənar uşaqların sayında eyni dərəcədə müsbət dinamika müşahidə olunmur və məktəbdənkənar qalma göstəriciləri böyük ölçüdə durğunluq nümayiş etdirir. Bu vəziyyət, digər amillərlə yanaşı, təkrar təhsilin azalması ilə əlaqələndirilir. Yəni, bəzi ölkələrdə daha çox şagirdin təhsil səviyyəsini başa vurması məktəbdənkənar uşaqların sayının avtomatik olaraq azalması demək deyil.

Hesabat bu göstəricinin üstünlükləri ilə yanaşı, məhdudiyyətlərini də nəzərdən keçirir. Təhsili tamamlama dərəcəsi təhsil sisteminin davamlılığı haqqında mühüm məlumat versə də, təkbaşına təhsilin keyfiyyətini və öyrənmə nəticələrini göstərmir. Şagirdin müəyyən təhsil səviyyəsini başa vurması onun həmin mərhələdə tələb olunan bilik və bacarıqları mənimsədiyini avtomatik şəkildə ifadə etmir.



Buna görə də təhsili tamamlama göstəricisi öyrənmə nəticələri, məktəbdənkənar qalma, iştirak, bərabərlik və digər DİM 4 indikatorları ilə birlikdə qiymətləndirilməlidir. Hesabatın yanaşması da məhz təhsilin müxtəlif aspektlərini bir-birindən ayrı deyil, qarşılıqlı əlaqədə izləməyin vacibliyini göstərir.
DİM 4 hesabatının mühüm xüsusiyyəti milli hədəflərin tətbiqidir. Bu hədəflər qlobal DİM 4 məqsədləri ilə uyğunlaşdırılır, lakin ölkənin başlanğıc vəziyyəti, milli prioritetləri və gözlənilən inkişaf sürəti nəzərə alınmaqla müəyyən edilir. Bu səbəbdən benchmark mexanizmi qlobal və milli səviyyələr arasında körpü rolunu oynayır.
Hesabatda ölkələrin 2025-ci il üçün müəyyən etdikləri hədəflərə çatmaq ehtimalı qiymətləndirilir. Milli hədəflər təqdim etməyən ölkələr üçün isə müqayisə məqsədilə “feasible benchmark”, yəni ölkənin tarixən ən sürətli inkişaf edən 25 faiz ölkənin göstəricilərinə uyğun sürətlə irəlilədiyi halda çata biləcəyi təxmini hədəf istifadə olunur. Bu metod ölkələr arasında sadəcə nəticələri deyil, mümkün inkişaf potensialını da nəzərə almağa imkan verir.
Hesabatın mühüm nəticələrindən biri odur ki, təhsil üzrə bütün göstəricilər üçün eyni səviyyədə keyfiyyətli və müqayisə oluna bilən məlumat mövcud deyil. Xüsusilə aşağı öyrənmə səviyyəsi, məktəblərdə internet bağlantısı və ixtisaslı müəllimlərin payı ilə bağlı məlumat boşluqları ölkələrin tərəqqisini tam qiymətləndirməyi çətinləşdirir. Bu boşluqlar yalnız statistik problem deyil onlar həm də siyasətçilərin hansı sahələrdə müdaxiləyə ehtiyac olduğunu dəqiq müəyyənləşdirməsinə mane ola bilər.
Məlumatların məhdudluğu xüsusilə öyrənmə nəticələrinin monitorinqində nəzərə çarpır. Ölkələrin təhsilə çıxış və tamamlama göstəriciləri üzrə daha çox məlumat təqdim etməsi mümkün olsa da, şagirdlərin faktiki olaraq hansı səviyyədə bilik və bacarıqlara malik olduğunu ölçən məlumatların əhatəsi daha zəifdir. Buna görə də təhsil sisteminin uğurunu yalnız iştirak və tamamlama göstəriciləri əsasında qiymətləndirmək kifayət deyil.

2026 DİM 4 üzrə göstəricilərin qiymətləndirilməsi hesabatı təhsil siyasətində ölçülə bilən və milli şəraitə uyğun hədəflərin müəyyənləşdirilməsinin əhəmiyyətini önə çəkir. Hesabatda tətbiq olunan yanaşma ölkələrə 2030-cu il üçün müəyyən edilmiş hədəflərlə yanaşı, aralıq hədəflər üzrə irəliləyişi də izləməyə imkan verir. Bu isə siyasətlərin icrasının vaxtında qiymətləndirilməsinə və zəruri hallarda müvafiq düzəlişlərin aparılmasına şərait yaradır.
Hesabatın nəticələri həmçinin göstərir ki, təhsili tamamlama göstəricilərinin yaxşılaşdırılması yalnız təhsil sisteminin daxilində həyata keçirilən tədbirlərdən asılı deyil. Ölkələr arasında müxtəlif nəticələrin formalaşmasında institusional, tələb və təklif yönümlü təhsil siyasətləri ilə yanaşı, xarici amillər də rol oynayır. Bu səbəbdən təhsili tamamlama səviyyəsinin yüksəldilməsi üçün məktəbə çıxışın genişləndirilməsi ilə yanaşı, şagirdlərin təhsildə qalmasına mane olan sosial-iqtisadi amillərin, məktəb mühitinin, təhsil xidmətlərinin keyfiyyətinin və müxtəlif sosial qruplar arasındakı bərabərsizliklərin də nəzərə alınması vacibdir.
Digər vacib məsələ təhsilin maliyyələşdirilməsidir. Hesabat göstərir ki, ölkələr dövlət təhsil xərcləri baxımından DİM 4 üzrə qəbul edilmiş iki əsas maliyyə həddindən – ÜDM-in ən azı 4 faizi və ya ümumi dövlət xərclərinin ən azı 15 faizi – 2024-cü ildə 2015-ci illə müqayisədə daha uzaq olmuşlar. Bu nəticə təhsil sistemlərinin inkişafı üçün yalnız məqsəd və göstəricilərin müəyyən edilməsinin yetərli olmadığını, həmin məqsədlərin həyata keçirilməsi üçün adekvat maliyyə resurslarının da təmin edilməsinin vacibliyini göstərir.
2026 DİM 4 üzrə göstəricilərin qiymətləndirilməsi hesabatı qlobal təhsil məqsədlərinin milli səviyyədə ölçülə bilən nəticələrə çevrilməsinin vacibliyini göstərir. Hesabatın əsas diqqətinin təhsili tamamlama göstəricilərinə yönəldilməsi ölkələrin təkcə təhsilə çıxışı genişləndirməsinin deyil, şagirdlərin təhsil səviyyələrini uğurla başa vurmasının da monitorinq edilməsinin zəruriliyini ön plana çıxarır. Qlobal səviyyədə tamamlama göstəricilərinin artması müsbət dinamika olsa da, ölkələr arasında inkişaf sürətinin əhəmiyyətli dərəcədə fərqlənməsi və yuxarı təhsil səviyyələrində çətinliklərin daha çox müşahidə olunması əlavə siyasət tədbirlərinə ehtiyac olduğunu göstərir.

Beynəlxalq Təhsil İcmalı
Avqust 2026



Hesabatın mühüm mesajlarından biri də məlumatın yalnız hesabatlılıq vasitəsi deyil, siyasət vasitəsi olmasıdır. Ölkələrin öz milli hədəflərini müəyyən etməsi və həmin hədəflərə doğru irəliləyişin müntəzəm izlənilməsi təhsil siyasətinin daha konkret, ölçülə bilən və milli kontekstə uyğun şəkildə formalaşdırılmasına imkan verir. 2026-cı ildə 170 ölkənin ən azı bir DİM 4 göstəricisi üzrə etalon göstəricilərin müəyyən edilməsi bu yanaşmanın geniş yayıldığını göstərir.

Ümumilikdə, hesabat qlobal təhsil gündəliyinin icrasını qiymətləndirmək üçün "ölkələri bir-biri ilə müqayisə etmək" yanaşmasından daha çox, hər bir ölkənin öz hədəfinə və inkişaf yoluna əsaslanan hesabatlılıq modelini gücləndirir. Bu yanaşma təhsil siyasətçilərinə mövcud vəziyyəti müəyyən etməklə yanaşı, gələcək hədəflərə çatmaq üçün hansı sahələrdə sürətlənməyə ehtiyac olduğunu görməyə imkan yaradır. Eyni zamanda, məlumat boşluqlarının aradan qaldırılması və beynəlxalq müqayisə oluna bilən statistik sistemlərin gücləndirilməsi DİM 4 üzrə irəliləyişin daha dəqiq qiymətləndirilməsi üçün əsas şərt olaraq qalır. Beləliklə, göstəricilər həm monitorinq mexanizmi, həm də milli təhsil siyasətinin planlaşdırılması və təkmilləşdirilməsi üçün strateji vasitə kimi əhəmiyyət daşıyır.

**Mənbə:** *UNESCO Institute for Statistics. (2026). 2026 SDG 4 scorecard report. UNESCO Institute for Statistics. https://www.unesco.org/gem-report/en/2026sdg4scorecard*

# Peşə bacarıqlarının artırılması yollarına dair icmal: Xorvatiyada böyüklər üçün yeni imkanlar

Avropa Peşə Təhsili və Təliminin İnkişafı Mərkəzi (Cedefop) tərəfindən hazırlanmış "Peşə bacarıqlarının artırılması yollarına dair icmal: Xorvatiyada böyüklər üçün yeni imkanlar" hesabatı Xorvatiyada, xüsusilə aşağı bacarıq və ya aşağı ixtisas səviyyəsinə malik böyüklərin təhsil və təlim imkanlarına çıxışını, mövcud bacarıqlarının inkişaf etdirilməsini və onların əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılmasını təhlil edir və yenilikəri müəyyən edir. Hesabat Cedefop-un2023–2026-cı illəri əhatə edən tematik ölkə icmalının üç tədqiqat mərhələsinin nəticələrini ümumiləşdirir və gələcək fəaliyyət üçün strateji istiqamətləri təqdim edir.

İcmal Avropa İttifaqı Şurasının 2016-cı il tarixli "Bacarıqların artırılması yolları: Böyüklər üçün yeni imkanlar" tövsiyəsi kontekstində hazırlanmışdır. Bu yanaşmanın məqsədi aşağı ixtisaslı böyüklərin baza, rəqəmsal və əmək bazarı üçün zəruri bacarıqlar əldə etməsinə kömək edən əlçatan və fərdiləşdirilmiş öyrənmə yollarının yaradılmasıdır. Xorvatiyada bu siyasətin əsas hüquqi bazalarından biri 2022-ci ildə qəbul edilmiş Böyüklərin Təhsili haqqında Qanundur.

Müasir əmək bazarında rəqəmsallaşma, texnoloji dəyişikliklər və yeni bacarıq tələbləri böyüklərin bilik və bacarıqlarını davamlı şəkildə yenilənməsini zəruriləşdirir. Bununla belə, aşağı bacarıqlı böyüklər çox vaxt məhz təhsil və təlim imkanlarından ən az istifadə edən qruplar arasında yer alır. Xorvatiyada da aşağı təhsil səviyyəsinə malik şəxslər, əmək bazarında fəal olmayan böyüklər, kənd yerlərində yaşayan əhali və üçüncü ölkə vətəndaşları kimi qrupların mövcud öyrənmə imkanlarına inteqrasiyası əsas problemlərdən biri olaraq qalır.

Problemin digər tərəfi isə yalnız təlim imkanlarının mövcudluğu ilə bağlı deyil. İnsanların bu imkanlardan xəbərdar olması, onları öz ehtiyaclarına uyğun hesab etməsi, təlimə maliyyə və vaxt baxımından çıxış əldə etməsi, əvvəlki bilik və bacarıqlarının tanınması və təlimdən sonra əmək bazarına keçidinin dəstəklənməsi bütövlükdə vahid "bacarıqların artırılması yolu" konsepsiyanın formalaşdırılmasını tələb edir.

Cedefop-un qiymətləndirməsinə görə Xorvatiyada böyüklərin öyrədilməsi üzrə institusional struktur kifayət qədər inkişaf etmişdir. Elm və Təhsil Nazirliyi, Əmək Nazirliyi, Xorvatiya Məşğulluq Xidməti, Peşə Təhsili və Böyüklərin Təhsili Agentliyi (AVETAE) bu sistemin əsas iştirakçılarıdır. Bununla belə, idarəetmənin mərkəzləşdirilməsi və milli, regional və yerli səviyyələr arasında koordinasiyanın zəif olması sistemin çevikliyini məhdudlaşdırır. Xüsusilə, regional əmək bazarlarının fərqli bacarıq ehtiyaclarına uyğun çevik təlim imkanlarının formalaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Son illərdə tətbiq edilən təhsil maliyyələşdirmə mexanizmləri böyüklərin akkreditasiyadan keçmiş təlimlərə çıxışını genişləndirən əsas mexanizmlərdən biridir. Milli Bərpa və Dayanıqlılıq Planı və Avropa Sosial Fondu tərəfindən maliyyələşdirilən rəqəmsal bacarıqlar üzrə təlimlərə çıxış imkanları bu bacarıqlar üzrə təlimlərdə həm işləyən, həm də işsiz böyüklərin iştirakını dəstəkləyir. Bu mexanizm təlim imkanlarının vizual faizini artırmaqla yanaşı, böyüklərin təlimə olan tələbatının stimullaşdırılmasına da xidmət edir.

Cedefop-un nəticələri göstərir ki, Xorvatiyada böyüklərin ömürboyu öyrənməyə marağı son illərdə güclənmişdir. 2022-ci il Böyüklərin Təhsili haqqında Qanun və yeni maliyyələşdirmə mexanizmləri böyüklər üçün təlim imkanlarının genişləndirilməsinə şərait yaratmışdır. üsusilə təhsilin maliyyələşdirilməsi sistemi təlimə çıxışın artırılması, habelə rəqəmsal və davamlı inkişaf bacarıqlarının təkmilləşdirilməsi baxımından müsbət mexanizm kimi dəyərləndirilir.



Bununla yanaşı, sistemin əhatə dairəsi bütün kateqoriyalar üzrə eyni deyildir. Təlim imkanlarından artıq xəbərdar olan və əmək bazarına nisbətən daha yaxın şəxslərin bu proqramlardan daha çox faydalanması riski mövcuddur. Ən çox dəstəyə ehtiyacı olan aşağı bacarıqlı, iqtisadi cəhətdən qeyri-fəal və digər həssas qrupların təlimə cəlb olunması isə daha məqsədyönlü yanaşma tələb edir. Bu səbəbdən sadəcə təlim yerlərinin və maliyyə dəstəyinin artırılması deyil, hədəf qruplarının müəyyənləşdirilməsi və onlarla aktiv şəkildə işin aparılması da vacibdir.

Digər mühüm məsələ təhsilin maliyyələşdirilməsi sisteminin davamlılığının təmin edilməsidir. Hazırda mövcud mexanizmin maliyyələşdirilməsində Avropa fondları əhəmiyyətli rol oynasa da, milli səviyyədə davamlı maliyyələşdirmə mexanizmləri məhdud olaraq qalır. Bununla yanaşı, mövcud maliyyələşdirmə imkanlarından istifadə səviyyəsi regionlar üzrə fərqlənir.
Cedefop Xorvatiyada bacarıqların artırılması yollarının effektivliyinin yüksəldilməsi üçün üç əsas istiqaməti önə çəkir:
Birinci istiqamət idarəetmə və koordinasiyanın gücləndirilməsidir. Milli, regional və yerli hakimiyyət orqanları, işəgötürən, təlim təşkilatçısı və digər maraqlı tərəflər arasında əməkdaşlığın inkişaf etdirilməsi təlim proqramlarının əmək bazarının real ehtiyaclarına uyğunlaşdırılmasına imkan verə bilər. Bu baxımdan regional bacarıq mərkəzlərinin və yerli tərəfdaşlıqların rolunun artırılması mühüm hesab olunur.
İkinci istiqamət maliyyələşmənin uzunmüddətli dayanıqlılığının təmin edilməsidir. “Vauçer” kimi uğurlu mexanizmlərin davamlı olması üçün onların mərhələli şəkildə sabit milli maliyyələşdirmə sistemlərinə inteqrasiyası vacibdir. İnzibati prosedurların sadələşdirilməsi və məlumat sistemlərinin təkmilləşdirilməsi də iştirak imkanlarını genişləndirə bilər.
Üçüncü istiqamət məqsədyönlü əhataetmə və istiqamətləndirmədir. İcma təşkilatları sosial xidmətlər və məşğulluq mərkəzləri ilə əməkdaşlıq etməklə təlimdən uzaqda qalan böyükləri müəyyənləşdirmək, onlara fərdiləşdirilmiş karyera və təhsil istiqamətləndirilməsi təqdim etmək mümkündür. Əvvəlki qeyri-formal və informal öyrənmənin tanınması da böyüklərin təlimə yenidən qoşulmasını asanlaşdıra bilər.

Cedefop-un Xorvatiya üzrə tematik ölkə icmalı göstərir ki, ölkədə böyüklərin bacarıqlarının artırılması və ömürboyu öyrənmənin inkişafı istiqamətində mühüm institusional və maliyyə mexanizmləri formalaşıb. Bununla belə, mövcud imkanların bütün əhali qruplarına bərabər şəkildə əlçatanlığın təmin edilməsi əsas çağırışlardan biri olaraq qalmaqdadır.

Xorvatiya nümunəsi göstərir ki, böyüklərin bacarıqlarının artırılması siyasətində yalnız təlim imkanlarının yaradılması kifayət etmir. Effektiv bacarıqların təkmilləşdirilməsi sistemi (upskilling) fərdin ehtiyaclarının müəyyənləşdirilməsini, ona uyğun təlim imkanının seçilməsini, maliyyə və karyera dəstəyini, əvvəlki öyrənmənin tanınmasını və əmək bazarına keçidin əlaqələndirilməsini tələb edir. Buna görə də idarəetmənin daha koordinasiyalı, maliyyələşmənin daha davamlı və ən həssas qruplara yönəlmiş əhataetmə mexanizmlərinin daha güclü olduğu sistemin qurulması Xorvatiyanın qarşıdakı əsas siyasət prioritetlərindən biri kimi qiymətləndirilə bilər.

**Mənbə:** *Cedefop. (2026). Thematic country review on upskilling pathways: new opportunities for adults in Croatia: key findings from three research phases and suggestions for future action. Cedefop research paper. Publications Office of the European Union.http://data.europa.eu/-doi/10.2801/5490285*

# Ömürboyu öyrənmənin ölçülməsi üçün yeni konseptual çərçivə

03

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən 28 iyul 2026-cı ildə "Educational Research and Innovation" seriyası çərçivəsində yayımlanan "Ömürboyu öyrənmənin ölçülməsi üçün yeni konseptual çərçivə" adlı hesabat ömürboyu öyrənmənin ölçülməsi üçün yeni konseptual əsasın formalaşdırılmasına həsr olunub. Hesabatın əsas məqsədi ömürboyu öyrənmənin yalnız formal təhsil və təlimdə iştirak göstəriciləri ilə məhdudlaşmadan, insanların həyat boyu və müxtəlif mühitlərdə öyrənmə proseslərini əhatə edən daha geniş ölçmə yanaşmasının hazırlanmasıdır.
Hesabatın hazırlanmasının aktuallığı süni intellektin əmək bazarına təsiri, demoqrafik yaşlanma, sosial dəyişikliklər və bacarıqlara tələbatın sürətlə dəyişməsi ilə əlaqələndirilir. Bu şəraitdə insanların formal təhsillə kifayətlənməyərək həyatları boyu yeni bilik və bacarıqlar əldə etməsi getdikcə daha böyük əhəmiyyət daşıyır. Bununla belə, mövcud beynəlxalq hesabatlar ömürboyu öyrənmənin bütün formalarını və mərhələlərini əhatə etməkdə məhdud qalır. Buna görə OECD ənənəvi "təhsil sistemləri" yanaşmasından daha geniş "öyrənmə sistemləri" yanaşmasına keçidi təklif edir.
Hesabata əsasən, mövcud ömürboyu öyrənmə məlumatları şaxələnmiş xarakter daşıyır və müxtəlif yaş qrupları, öyrənmə mühitləri və öyrənmə nəticələri arasında kifayət qədər əlaqə yaratmır. Mövcud təhsil sorğuları çox vaxt fərdlərin həyatını tam izləmədiyindən, formal təhsil mərhələsi ilə sonrakı öyrənmə təcrübələri arasında əlaqələrin müəyyənləşdirilməsi çətinləşir. Yetkinlərin öyrənməsinə dair sorğular isə əsasən 25-64 yaş qrupuna fokuslanır və bu səbəbdən həmin yaş aralığından əvvəl və sonra baş verən öyrənmə prosesləri kifayət qədər araşdırılmır.

Digər vacib məhdudiyyət məlumatların əsasən müəyyən zaman kəsiyinə əsaslanmasıdır. Belə məlumatlar müəyyən zaman kəsiyində vəziyyəti göstərsə də, fərdin təhsil və öyrənmə trayektoriyasının zamanla necə dəyişdiyini tam izləməyə imkan vermir. Bu isə insanların müxtəlif həyat mərhələlərində əldə etdikləri bilik və bacarıqların necə formalaşdığını, əvvəlki öyrənmə təcrübələrinin sonrakı nəticələrə necə təsir etdiyini müəyyənləşdirməyi çətinləşdirir.
Hesabatda mövcud ölçmələrin digər mühüm məhdudiyyəti öyrənmənin nəticələrinin əsasən əmək bazarı göstəriciləri ilə əlaqələndirilməsi kimi qeyd olunur. Halbuki öyrənmənin faydaları məşğulluq və gəlirlə məhdudlaşmır. Öyrənmə sağlamlıq, rifah, sosial əlaqələr və fərdi inkişaf kimi daha geniş nəticələrə də təsir göstərə bilər. Eyni zamanda, müasir dövrdə öyrənmənin əhəmiyyətli hissəsi məktəb və universitetlərdən kənarda – iş yerlərində, ailələrdə, sosial və rəqəmsal mühitlərdə formalaşır. Bu öyrənmə formalarının mövcud statistik sistemlərdə kifayət qədər əks olunmaması ömürboyu öyrənmənin real miqyasının qiymətləndirilməsində problemlər yaradır.
Mövcud məhdudiyyətləri aradan qaldırmaq üçün OECD ömürboyu öyrənmənin ölçülməsinə yeni konseptual yanaşma təklif edir. Bu yanaşmanın əsasını öyrənmənin yalnız formal təhsil müəssisələrində baş verən proses kimi deyil, insanın bütün həyat dövrünü və müxtəlif sosial, peşəkar və rəqəmsal mühitləri əhatə edən proses kimi qəbul edilməsi təşkil edir. Beləliklə, məktəb və universitetlər öyrənmə sisteminin mühüm hissəsi olaraq qalır, lakin artıq bu sistemin əsas komponentləri kimi nəzərdən keçirilmir.
OECD-nin təklif etdiyi konseptual çərçivə əlaqəli sütunlar üzərində qurulur: öyrənməyə tələb, öyrənmə imkanlarının təklifi və onların koordinasiyası. Tələb fərdlərin, təşkilatların, icmaların və cəmiyyətlərin mövcud, həmçinin gələcək öyrənmə ehtiyaclarını ifadə edir. Təklif formal təhsil müəssisələri ilə yanaşı, iş yerləri, sosial çevrələr və digər mühitlər tərəfindən təqdim olunan öyrənmə imkanlarını əhatə edir. Koordinasiya isə öyrənmə ehtiyacları ilə mövcud imkanların uyğunlaşdırılmasını və bu prosesin idarə olunmasını nəzərdə tutur.
Yeni yanaşmanın digər mühüm xüsusiyyəti "öyrənmə" anlayışının özünün genişləndirilməsidir. OECD ənənəvi formal, qeyri-formal və informal öyrənmə bölgüsünün müasir hibrid və rəqəmsal öyrənmə formalarını tam əks etdirmədiyini nəzərə alaraq, öyrənmə fəaliyyətlərinin formallaşdırma və rəqəmsallaşma ölçüləri əsasında nəzərdən keçirilməsini təklif edir. Bu yanaşma rəqəmsal platformalar, iş yerində öyrənmə, hibrid təlim və digər yeni öyrənmə formalarının ölçmə sistemlərində daha düzgün əks etdirilməsinə imkan yarada bilər.



Təklif olunan çərçivənin birinci elementi öyrənməyə tələbatdır. Bu element fərdlərin, təşkilatların və bütövlükdə cəmiyyətin bilik və bacarıqlara olan ehtiyacını əhatə edir. Fərdi səviyyədə bacarıq ehtiyacları, öyrənməyə motivasiya və iştirak qarşısındakı maneələr, təşkilati səviyyədə isə mövcud bacarıqlarla tələb olunan bacarıqlar arasındakı uyğunsuzluq nəzərə alınır. Daha geniş səviyyədə iqtisadi, sosial, texnoloji və demoqrafik dəyişikliklərin yaratdığı yeni öyrənmə ehtiyacları qiymətləndirilir.

Növbəti element öyrənmə imkanlarıdır. OECD bu anlayışı formal təhsil sistemindən daha geniş şəkildə müəyyən edir. Təhsil müəssisələri ilə yanaşı, iş yerlərində təşkil olunan öyrənmə, peşəkar inkişaf, sosial və rifah proqramları, icma əsaslı fəaliyyətlər və digər öyrənmə imkanları da bura daxil edilir. Belə yanaşma öyrənmə imkanlarının real müxtəlifliyini və onların müxtəlif qruplar üçün əlçatanlığını daha əhatəli şəkildə qiymətləndirməyə imkan verir.

Təklif olunan konseptual çərçivənin praktikada tətbiq edilməsi mövcud məlumat sistemlərinin modernləşdirilməsini tələb edir. OECD bu çərçivədə ilk növbədə müəyyən zaman kəsiyində aparılan (cross-sectional) sorğuların optimallaşdırılmasını və miqyasının böyüdülməsini zəruri hesab edir. Sözügedən sorğular öyrənmənin fərqli formaları və yaş qrupları ilə yanaşı; motivasiya, iştiraka mane olan amillər, öyrənmə ehtiyacları və əldə edilən nəticələr barədə daha ətraflı məlumat toplamağa xidmət etməlidir.

İkinci istiqamət zaman üzrə ardıcıl məlumatların (longitudinal data) inkişaf etdirilməsidir. Şəxslərin müxtəlif həyat mərhələlərində təhsil, bacarıq və öyrənmə trayektoriyalarını izləmək üçün məlumat bazalarının əlaqələndirilməsi zəruridir. Bu yanaşma ilkin təhsil, sonrakı öyrənmə, əmək bazarına keçid və digər həyat mərhələləri arasındakı əlaqələrin daha yaxşı öyrənilməsinə şərait yarada bilər.

Növbəti istiqamət inzibati məlumatların inkişaf etdirilməsi və müxtəlif məlumat mənbələrinin inteqrasiyasıdır. Təhsil, məşğulluq və digər sahələrə dair inzibati məlumatların əlaqələndirilməsi ömürboyu öyrənmə haqqında daha əhatəli informasiya yaratmağa imkan verə bilər. OECD, həmçinin kvalifikasiyaların və əldə edilmiş bacarıqların zamanla toplanmasını əks etdirən ardıcıl öyrənmə qeydlərinin və bacarıq profilinin ("skills passports") inkişafını mümkün istiqamətlərdən biri kimi göstərir.

Hesabatın əhəmiyyəti ondan ibarətdir ki, ömürboyu öyrənmə siyasətinin qiymətləndirilməsi üçün yalnız təhsildə iştirak göstəricilərinə əsaslanmaq yetərli deyil. Effektiv siyasət üçün insanların hansı öyrənmə ehtiyaclarına malik olduğu, hansı imkanların mövcud olduğu və bu ehtiyaclarla imkanların nə dərəcədə uyğunlaşdırıldığı barədə məlumatların birlikdə təhlil edilməsi tələb olunur.

Bu yanaşma təhsil siyasətinin əmək bazarı, məşğulluq, sosial müdafiə, regional inkişaf və digər siyasət sahələri ilə daha sıx əlaqələndirilməsini vacib edir. Xüsusilə sürətli texnoloji dəyişikliklər və süni intellektin əmək bazarına təsiri fonunda bacarıq ehtiyaclarının əvvəlcədən müəyyənləşdirilməsi və öyrənmə imkanlarının bu ehtiyaclara uyğunlaşdırılması daha böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, öyrənmənin sağlamlıq, rifah və digər əmək bazarından kənar nəticələrinin də nəzərə alınması siyasətlərin daha geniş sosial təsir əsasında qiymətləndirilməsinə şərait yarada bilər.

OECD-nin yanaşması həmçinin siyasətçilərin diqqətini "insanlar nə qədər təhsil alır?" sualından "insanlar həyatları boyunca necə və harada öyrənirlər, eyni zamanda bu öyrənmə onların həyatına hansı nəticələri gətirir?" sualına yönəldir. Beləliklə, ömürboyu öyrənmənin ölçülməsi yalnız statistik məqsəd daşımır; o, öyrənmə sistemlərinin planlaşdırılması, resursların bölüşdürülməsi və siyasətlərin effektivliyinin qiymətləndirilməsi üçün informasiya bazası yaradır.

OECD-nin 2026-cı il hesabatı ömürboyu öyrənmənin ölçülməsinə ənənəvi yanaşmaların əhatə dairəsinin genişləndirilməsini təklif edir. Hesabatın əsas mesajı ondan ibarətdir ki, ömürboyu öyrənməni yalnız formal təhsil müəssisələrində iştirak və əmək bazarı nəticələri əsasında qiymətləndirmək mümkün deyil. Öyrənmə həyatın müxtəlif mərhələlərində, iş yerlərində, ailələrdə, cəmiyyətdə, rəqəmsal platformalarda baş verir və bu proseslərin ölçmə sistemlərində əks olunması tələb olunur.



Bu məqsədlə OECD tələb, təklif və koordinasiya arasında qarşılıqlı əlaqəni əsas götürən konseptual çərçivə təklif edir. Çərçivənin tətbiqi üçün sorğuların təkmilləşdirilməsi, ardıcıl məlumatların inkişaf etdirilməsi, inzibati məlumatların inteqrasiyası, kvalifikasiya və bacarıqların kumulyativ qeydlərinin yaradılması və yeni analitik imkanlardan istifadə kimi istiqamətlər önə çəkilir. Hesabat bununla hazır və yekun indikator sistemi təqdim etməkdən daha çox, ölkələrdə ömürboyu öyrənmənin gələcəkdə daha əhatəli şəkildə ölçülməsi üçün konseptual baza formalaşdırır.

Ümumilikdə, OECD-nin təklif etdiyi yanaşma ömürboyu öyrənmənin qiymətləndirilməsində “təhsil sistemi” perspektivindən daha geniş “öyrənmə sistemi” perspektivinə keçidi nəzərdə tutur. Bu yanaşma insanların həyatları boyu əldə etdikləri öyrənmə imkanlarının, ehtiyaclarının və nəticələrinin sistemli şəkildə qiymətləndirilməsinə, eləcə də ömürboyu öyrənmə siyasətinin etibarlı məlumatlar əsasında formalaşdırılmasına imkan verir. Hesabatın əsas qənaətinə görə, ömürboyu öyrənmənin inkişafını izləmək üçün öyrənmənin yalnız formal təhsil çərçivəsində deyil, insanın bütün həyat dövrü üzrə və müxtəlif mühitlərdə ölçülməsi zəruridir.

**Mənbə:** *OECD (2026), A Conceptual Foundation for the Development of a Lifelong Learning Measurement Framework, Educational Research and Innovation, OECD Publishing, Paris, https://doi.org/10.1787/27e5a619-en.*

Beynəlxalq Təhsil İcmalı
Avqust 2026